# Kibertəhlükəsizliyin Təmin Olunması Məqsədilə İnternet Mühitində Folklor Resursları Əsasında Fərdlərin İdentifikasiyası İmkanlarının Araşdırılması

Hikmət Quliyev
AMEA Folklor İnstitutu, Bakı, Azərbaycan
*hikmet.guliyev85@gmail.com*

***Xülasə*— Tədqiqat işində kibertəhlükəsizliyin təmin olunması məqsədi İnternet mühitində folklor resursları mətn kimi deyil, sosial dinamikanın və kollektiv psixologiyanın metaforik təzahürü kimi təqdim olunur. "Çoxmənalı folklor" anlayışı xalq biliyinin proyektiv, inversiv və simvolik xarakterini vurğulayır və onların birbaşa (hərfi, bədii, məzmun) interpretasiyasının risklərini göstərir. Təklif olunan "çoxölçülü analitik model" isə folklor resurslarını semiotik, ideoloji, emosional və kommunikativ parametrlər üzrə təhlil edərək kibersosial qrupların strukturunu, davranış trayektoriyasını və yönləndirilmə mexanizmlərini müəyyənləşdirməyə imkan yaradır.**

***Açar sözlər*— kibersosial qrup; kibercinayətkarlıq; rəqəmsal folklor; süni intellekt.***

## I. GİRİŞ

Məlum olduğu kimi, rəqəmsal transformasiyalar yalnız texnoloji infrastrukturu deyil, həm də sosial ünsiyyət formalarını, kollektiv mövcudluq modellərini, mədəni yaradıcılıq mexanizmlərini əsaslı şəkildə dəyişdirmişdir. Ənənəvi cəmiyyətdə əsasən üz-üzə kommunikasiya (face-to-face communication) və lokal məkan çərçivəsində məhdudlaşan sosial qruplar rəqəmsal mühitdə sərhədsiz virtual məkanlarda fəaliyyət göstərən dinamik kibersosial qruplarla əvəz olunmuşdur. Bu transformasiya yalnız kommunikasiya vasitələrinin dəyişməsi deyil, eyni zamanda kollektiv bilik istehsalı və paylaşılması mexanizmlərinin yenidən təşkili deməkdir.

Rəqəmsal texnologiyaların inkişafı nəticəsində folklor faktları yarandığı andan etibarən rəqəmsal verilənlər ("data") şəklində meydana çıxır və dövriyyəyə daxil olur. Eyni zamanda həmin resursların ən müxtəlif parametrlər üzrə – zamana, məkana, sosial qruplara, dil spesifikasına, kommunikasiya platformalarına və digər əlamətlərə görə sistemli şəkildə təhlil edilməsi imkanları meydana çıxır. Bu vəziyyət folklorşünaslıq qarşısında yeni metodoloji perspektivlər açır və sosial-antropoloji folklorşünaslıq yanaşmalarının informasiya-kommunikasiya texnologiyaları, Böyük verilənlərin analitikası (Big Data Analytics), verilənlərin analizi ("data mining"), mətnlərin analizi ("text mining"), maşın təlimi və süni intellekt texnologiyaları ilə inteqrasiyası üçün əlverişli zəmin yaradır.

Bu kontekstdə folklor faktı artıq statik bir mətn və ya şifahi ənənənin məhsulu kimi deyil, böyük verilənlərin tərkib hissəsi kimi çıxış edir. Daha da əhəmiyyətlisi folklor fərdlərin və sosial qrupların rəqəmsal identikliyini əks etdirən, müəyyən mənada biometrik göstəricilərlə müqayisə edilə biləcək mədəni kodlar kompleksi funksiyasını daşımağa başlayır. Belə ki, anonim və ya yarı anonim kibersosial qruplar onların istifadə etdikləri dil konstruksiyaları, davranış modelləri, ritual mahiyyətli kommunikativ praktikaları, memlər, stereotiplər, simvollar və digər folklorik "iz"-lər əsasında identifikasiya oluna bilirlər. Sosial antropoloji folklorşünaslıq baxımından bu yanaşma folklorşünaslığın tədqiqat predmetini klassik mətn mərkəzli modeldən kollektiv davranışın, sosial münasibətlərin və daha geniş mənada kollektiv bilik sistemlərinin öyrənilməsinə doğru genişləndirir.

İnformasiya cəmiyyətinin inkişafı fonunda folklorun funksional spektri də əhəmiyyətli dərəcədə dəyişmişdir. Əgər ənənəvi yanaşmalarda folklor əsasən estetik, etnik və mədəni dəyələrin daşıyıcısı kimi qiymətləndirilirdisə, rəqəmsal mühitdə o, eyni zamanda sosial monitorinq, informasiya təhlükəsizliyi, ictimai rəyin analizi və kollektiv davranış modellərinin öyrənilməsi baxımından strateji əhəmiyyət daşıyan məlumat mənbəyinə çevrilmişdir. Bu mənada rəqəmsal folklor yalnız kollektiv yaradıcılığın məhsulu deyil, həm də kibermühitdə mövcud olan fərdlərin və sosial qrupların dünyagörüşünü, dəyər sistemlərini və davranış "trayektoriyalarını" əks etdirən sosial-mədəni indikator kimi çıxış edir.

Problemin aktuallığı həm də onunla bağlıdır ki, kibermühitdə anonimlik imkanları bir tərəfdən onların sərbəst kommunikasiya fəaliyyətini genişləndirsə də, psixoloji rahatlığını təmin etsə də, digər tərəfdən kiberzorakılıq, dezinformasiya və kibercinayətkarlıq üçün münbit şərait yaradır. Xüsusilə də, kibersosial mühitdə, sosial şəbəkə və platformalarda saxta profillərdən və "nikneym"lərdən (ləqəblərdən) istifadə imkanlarının olması, bunun hesabına ictimai qınaqdan ("üz-üzdən utanar", "eldən ayıbdır", "camaat bizə nə deyər" modeli), eləcə də rəsmi hüquqi məsuliyyətdən qaçmaq şəraitinin ortaya çıxması İnterneti kibercinayətkarlıq və kiberzorakılıq üçün ən əlverişli mühitə çevirmişdir [1]. Başqa sözlə, stereotiplərlə tənzimlənən qarşılıqlı sosial münasibətlər kənd həyatının konservatizmindən, şəhər mühitinin multikultural və multietnik çalarlılığından daha böyük miqyasa və mürəkkəb struktura malik olan İnternetə transformasiya olunarkən fərqli vəziyyət ortaya çıxır. Belə bir gerçəklik, virtual dünyanı yeni "daxil olan"lar, buranın davranış qaydalarına "nabələd" olanlar, yaşlılar, azyaşlılar və uşaqlar üçün "tələyə" çevirir. Müxtəlif şəxslər və yaxud qruplar özlərinin bəd

DOI: 10.25045/forensic.gov.2026.72

əməllərini həyata keçirmək üçün əlverişli imkan əldə edirlər. Daha doğrusu, İnternetin mövcud sosio-texnoloji imkanları eyni zamanda zərərli, bədniyyətli fəaliyyətlər üçün də şərait yaradır. Nəzərə almaq lazımdır ki, virtual və ya kibermühitdə zorakılıq həyata keçirən qruplar mahiyyəti etibarı ilə kibersosial qruplardır. H.Z.Əryılmaz "kiber camaat" adlandırdığı bu qruplar barədə T.Çomu və İ.Halaiqaya istinadən yazır ki, onlar "ortaq maraq sahələri, zövqlər, xəyallar, qorxular, ya da qazanc zəminində bir yerdə birləşən fərdlərdən ibarətdir" [2]. Onların müəyyən bir maraq ətrafında birləşməsi sosial qrup üçün zəruri olan şərtləri təmin edir. Bəllidir ki, Alan Dandesin sosial qrup konseptinin əsasında "ən azı iki şəxs" faktoru və "qrup kimliyi hissini yaradan ənənələr" [3, 4] məsələsi dayanır.

Bu şəraitdə texnoloji identifikasiya metodları (IP ünvanlar, cihaz məlumatları, geolokasiya və s.) çox vaxt kifayət etmir, çünki peşəkar kiber-aktlar bu izləri asanlıqla gizlətmək və ya manipulyasiya etmək imkanına malikdirlər.

Məhz bu məqamda folklorun "humanitar identifikasiya" potensialı ön plana çıxır. Çünki fərd öz texnoloji izini gizlədə bilsə də, mənsub oluğu sosial-mədəni mühitin stereotiplərini, folklorik qəliblərini, kollektiv emosional reaksiyalarını, dəyərlərini və kommunikativ davranış modellərini gizlədə bilmir. Bu baxımdan folklor metaforik mənada fərdin və yaxud sosial qrupun "mədəni DNT-si" kimi çıxış edir və onun rəqəmsal davranışlarının arxasında duran kollektiv düşüncə kodlarını üzə çıxarır.

Beləliklə, bu nəzəri əsaslardan çıxış edərək "folklor profili" və "folklor əsaslı rəqəmsal identifikasiya modeli" anlayışını irəli sürmək mümkündür. Belə model kibərməkanda fəaliyyət göstərən fərlərin və anonim kibersosial qrupların yaratdıqları folklorik izlərin – dil xüsusiyyətlərinin, memlərin, stereotiplərin, narrativlərin və kommunikativ davranış formalarının sistemli analizi əsasında onların sosial-mədəni mənsubiyyətinin müəyyənləşdirilməsinə xidmət edə bilər. Düşünürük ki, perspektivdə bu yanaşma folklorik izlər əsasında anonim kibersosial qrupların aşkarlanmasına yönəlmiş süni intellekt platformalarının və humanitar yönümlü rəqəmsal analitik sistemlərin nəzəri-metodoloji bazasının formalaşdırılmasına töhfə verə bilər.

## II. Folklorun Sosial Qrup İdentifikasiyası: Kibersosial Qruplar və Rəqəmsal Folklorik Resurslar

Sosial-antropoloji folklorşünaslıq yanaşmasına görə, folklor "ən azı iki şəxsin" özlərinə məxsus hesab etdikləri ortaq, şərikli yaradıcılığın məhsuludur. Alan Dundes tərəfindən irəli sürülən bu konsepsiyaya görə, xalq biri-biri ilə ən azı bir ortaq faktora – dünyagörüş, peşə birliyi, maraq ətrafında birləşən ən azı iki şəxsdən təşkil olunan sosial qrupdur [5]. Bu yanaşma həm xalq, həm bilik, həm də xalq biliyi anlayışlarını fundamental şəkildə dəyişdirdi. Məlum oldu ki, cəmiyyət müxtəlif faktorlar əsasında təşkil olunan çoxsaylı sosial qruplardan ibarətdir. Alan Dandesin tədqiqatları ilə folkloru yaradan xalqın ("folk"-un) siyasi, coğrafi, etnik və s. prinsiplərdən fərqli bazis üzərində qurulan təsisat olduğu üzə çıxdı [5]. Alan Dandesin xalq kimi müəyyənləşdirdiyi sosial təsisatı G.A.Fayn "qarşılıqlı əlaqədə olan birlik" şəklində ifadə edir və idiokultura anlayışına belə bir tərif verir: "İdiokultura qarşılıqlı əlaqədə olan bir qrupun üzvləri tərəfindən paylaşılan və həmin qrupun üzvlərinin gələcəkdəki qarşılıqlı əlaqələrinin təməli olaraq istinad və istifadə edə biləcəyi bilik, inanc, davranış və ənənə sistemindən ibarətdir" [6]. Beləliklə, fərdin sosial qrupa aidiyyəti sosial qrupun üzərində təmərküzləşdiyi "lore" ilə, yəni biliklə müəyyənləşir. Biliyin tərkibini isə gündəlik davranış və adətlərdən tutmuş, inanclara, müxtəlif ənənələrə qədər olan informasiyalar təşkil edir. İstər xoşniyyətli, istərsə də bədniyyətli kibersosial qrupların formalaşmasında eyni qanunauyğunluq özünü göstərdiyi üçün həm fərdi, həm də sosial qrup səviyyəsində kibercinayətkarlıq və kiberzorakılıq faktlarının aşkarlanmasında bu faktor nəzərə alına bilər. Deməli, kibersosial qrupun qarşıya qoyduğu məram və məqsəddən asılı olmayaraq, folklorşünaslıq baxımından bizi həmin qrupu formalaşdıran dəyərlər, şərikli bilik, ortaq ənənə və davranışlar, spesifik dil və üslub maraqlandırır. Bu baxımdan İnternet istifadəçilərinin mənsub olduğu folklor mədəniyyəti (folklorik düşüncə modelləri, deyim və ifadələr) kibercinayətkar sosial qrupların üzə çıxarılmasında çox əhəmiyyətli faktora çevrilir.

Şübhəsiz ki, virtual mühit real sosial mühitin davamı, uzantısı olduğu üçün insanlar burada da müxtəlif sosial qruplar təşkil edirlər. Lakin virtual sosial qruplar ənənəvi mühitdəkindən fərqli spesifikaya malikdirlər. K.Varnalı yazır ki, "sosial mediada insanlar fiziki şərtlər və ya qan bağları səbəbi ilə deyil, maraq sahələri, ortaq zövqlər, xəyallar, qorxular və ya mənfəətləri zəminində bir araya gələrək sosial qruplar formalaşdırırlar. Bu qruplar da bərabərliklərindən doğan mədəniyyətlərin təsiri ilə davranışlar sərgiləməkdədirlər..." [7].

R.G.Hovardın "vernacular web" nəzəriyyəsi [8] İnternetdə meydana gələn iştirakçı sosial media platformalarına qeyri-rəsmi, vernakulyar diskurs kimi yanaşmanı özündə ehtiva edir və bu baxış bizə onu deməyə əsas verir ki, rəqəmsal mühitdə insanlar öz kimliklərini, dəyərlərini və kollektiv mənsubiyyətini vernakulyar məzmun vasitəsilə ifadə edir. Bu o deməkdir ki, İnternet folkloru rəqəmsal mühitdə mövcud olan fərd və sosial qrupların kollektiv yaradıcılığıdır.

Kibersosial qruplar ortaq maraq, dünyagörüş və ya müəyyən situasiya əsasında formalaşan, virtual mühitdə kollektiv davranış sərgiləyən strukturlardır. Bu qruplar ənənəvi sosial qruplardan fərqli olaraq, qohumluq, fiziki məkandan asılı deyil və çox vaxt efemer (müvəqqəti) xarakter daşıyır. Lakin onların daxili bütövlüyünü və xarici sərhədlərini müəyyən edən əsas amil onların yaratdıqları və dövriyyəyə buraxdıqları rəqəmsal folklor nümunələridir. Memlər, ironik ifadələr, spesifik hashtaglər və vizual simvollar yalnız əyləncə vasitəsi deyil, həm də qrupdaxili ünsiyyətin "parolu" və "biz-onlar" oppozisiyasının qurulma mexanizmidir. Odur ki, həmin rəqəmsal folklorik resurslar kibersosial qrupların identifikasiyası üçün əlavə informasiya mənbəyi kimi çıxış edə bilər.

Beləliklə, sosial-antropoloji folklorşünaslıq yanaşmasına görə, folklor onu yaradan sosial qrupun dünyagörüşünün, maraq, mövqe, arzu və ehtiyaclarının, kollektiv yaddaşının, dəyər sisteminin, bütövlükdə sosial münasibətlərinin metaforik-simvolik təzahürüdür. Yəni folklor təkcə bədii-estetik mahiyyət daşımır, onun vasitəsilə təkcə məlumat ötürülmür. Folklor sosial münasibətlərin tənzimlənməsi, qrup kimliyinin formalaşması, ənənə və kollektiv davranış modellərinin davamlılığının təmin edilməsi, sosial təcrübənin ötürülməsi və kollektiv yaddaşın

qorunması mexanizmi kimi çıxış edir.

Lakin bir məsələni nəzərə almaq lazımdır ki, folklor onu yaradan sosial qrupun dünyagörüşünün heç bir halda birbaşa, birmənalı ifadəsi deyildir. İstər real, istərsə də virtual mühitdə meydana gələn folklorik vahidlər kollektiv fantaziyanın, gizli aqressiyanın, ideoloji düşüncə və davranış stereotiplərinin dolayı təzahürü kimi çıxış edir. Bu səbəbdən onların birbaşa, hərfi və yaxud məzmun baxımından oxunuşu yanlış identifikasiyaya səbəb ola bilər. Odur ki, kibertəhlükəsizliyin təmin olunması məqsədi ilə İnternet mühitində folklor resursları əsasında fərdlərin identifikasiyası zamanı folklorşünaslığın interpretativ və semiotik təhlil imkanları xüsusi əhəmiyyət kəsb edir.

## III. Folklorun Çoxmənalı Təbiəti və Unikal İdentifikasiya Potensiali

Məlumdur ki, folklor özünün mənşəyi etibarı ilə qeyri-şüuri gerçəkliklə bağlıdır və onun diskursiv ifadəsi metaforik-simvolik mahiyyət daşıyır. Məhz buna görə folklor sosial qrupun dünyagörüşünü, emosional vəziyyətini və kollektiv davranış modellərini birbaşa deyil, müxtəlif simvolik və metaforik kodlar vasitəsilə əks etdirir. Bu xüsusiyyət folklorun identifikasiya potensialını artırmaqla yanaşı, onun interpretasiyasını da mürəkkəbləşdirir.

Folklorun çoxmənalı təbiəti xalq biliyinin proyektiv və simvolik xarakterini ifadə edir. Səfa Qarayev yazır ki, "Qrupun özünəməxsus xarakterik cizgiləri isə onun çoxçeşidli proeksiya materiallarında, xüsusən folklorunda təcəssüm olunur. Amma folklor faktlarının arxasında dayanan xarakteri görmək üçün materialların sadəcə müşahidə edilməsi kifayət deyil. Folklorik təzahürün mahiyyəti onu doğuran xarakterin mahiyyəti ilə simmetrik olmaya da bilər. Odur ki, qrupun folklor faktlarını proeksiya olunan gerçəklik kimi qəbul edib ondan proeksiya edənin stimulverici dünyagörüşünü, komplekslərini və s. xüsusiyyətlərini bərpa etməklə qrup xarakterini (və ya milli, özünəməxsus psixologiyasını) öyrənməyə nail ola bilərik" [9].

Bu o deməkdir ki, virtual mühitdə paylaşılan folklorik fakt və ya təsvir zahirən sadə görünsə də, onun altında yatan semantik qat yalnız həmin qrupa məxsus olan "gizli məna"nı ehtiva edir. Folklorun bu xüsusiyyəti kibersosial qruplara öz daxili birliyini qorumaq və kənar şəxsləri (outsiders) qrupdan kənarlaşdırmaq imkanı verir. Məsələn, müəyyən bir mem hər hansı qrup üzvləri üçün qəhrəmanlıq simvolunu ifadə etdiyi halda, kənar müşahidəçi üçün bu, sadəcə mənasız bir şəkil kimi görünə bilər.

Bu kontekstdə kibercinayətkar qruplar öz aralarında folklorik metaforalardan istifadə edərək hüquq-mühafizə orqanlarının diqqətindən yayına bilərlər. Bu resursların birbaşa, hərfi interpretasiyası təhlükəsizlik analitiklərini yanlış nəticələrə apara bilər. Odur ki, folklor resurslarının təhlili onların inversiv (tərs) və simvolik mənalarının deşifrə edilməsini tələb edir. Bu, folklorun "proyektiv" xarakteridir, yəni qrup öz daxili qorxularını, arzularını və nifrətini folklorik obrazlar vasitəsilə virtual mühitə proyeksiya edir. Bu proyeksiyaların düzgün oxunması kibersosial qrupların psixoloji profilini çıxarmaq üçün həlledici əhəmiyyət kəsb edir.

Məsələn, folklorun proyektiv-inversiv xarakteri nəticəsində müəyyən sosial qrup üçün mənfi hesab olunan obraz başqa bir qrup daxilində qəhrəmanlaşdırıla, qəhrəman obrazı isə ironik və ya neqativ semantik yük qazana bilər. Bu cür semantik inversiyalar qrupdaxili münasibətlərin, kollektiv dəyərlərin və ideoloji sərhədlərin simvolik şəkildə kodlaşdırılmasına xidmət edir. Odur ki, folklorun proyektiv-inversiv təbiəti onun metaforik-simvolik mahiyyətinin anlaşılmasında, konkret halda isə, kibersosial qrupların identifikasiyasında əhəmiyyətli rol oynaya bilər. Deməli, rəqəmsal folklor resurslarının kibertəhlükəsizlik məqsədilə təhlili yalnız texniki və kriminalistik deyil, həm də folklorşünas interpretasiyasını tələb edən mürəkkəb hermenevtik prosesdir.

Nəticə etibarı ilə, folklor faktı yalnız kommunikasiyaya xidmət edən və yaxud kommunikasiyada ortaya çıxan kollektiv düşüncə məhsulu deyil, folklor onu yaradan sosial qrup haqqında çoxsaylı məlumatları özündə daşıyan çoxmənalı sosial-semiotik informasiya sistemi kimi çıxış edir. Məhz bu xüsusiyyət folklorun identifikasiya potensialını formalaşdırır və kibermühitdə fəaliyyət göstərən fərdlərin və kibersosial qrupların folklorik izlər əsasında müəyyənləşdirilməsi üçün nəzəri əsas yaradır.

## IV. Kibersosial Qrupların Folklorik İzləri və Folklor Profili Anlayışı

İnternet mühitində fərdlərin və yaxud kibersosial qrupların identifikasiyası üçün folklor resurslarından istifadə edilməsi folklorşünaslığın antropologiya, sosiolinqvistika və kibertəhlükəsizliklə kəsişməsində ortaya çıxan multidissiplinar bir yanaşmadır.

Kibermühitdə fəaliyyət göstərən hər bir fərd və ya sosial qrup özündən müəyyən izlər buraxır. Ənənəvi kibertəhlükəsizlik yanaşmaları bu izləri əsasən texnoloji göstəricilər – IP ünvanları, cihaz identifikatorları, geolokasiya məlumatları və digər rəqəmsal parametrlər üzrə müəyyənləşdirir. Lakin bu əlamətlər istifadəçinin şərti şəkildə desək, "texnoloji izləri"dir və əksər hallarda bədniyyətli kibersosial qruplar texnoloji identifikasiya əlamətlərini gizlətməyə nail olurlar. Bu halda "folklorik iz" yanaşması, hesab edirik ki, İnternet mühitində folklor resursları əsasında fərdlərin identifikasiyası imkanlarının genişləndirilməsi baxımından diqqəti cəlb edə bilər. Belə ki, sosial-antropoloji folklorşünaslıq rakursundan yanaşdıqda kommunikasiya prosesində meydana çıxan və kollektiv bilik, dəyər, stereotip və davranış modellərini əks etdirən folklorik elementlər də identifikasiya üçün mühüm informasiya daşıyır. Biz "folklorik iz" dedikdə fərdin və ya sosial qrupun kommunikasiya prosesində qeyri-şüuri şəkildə yaratdığı folklorik elementlərin məcmusunu nəzərdə tuturuq. Bu baxımdan kiberməkanda formalaşan memlər, ləqəblər, stereotip ifadələr, narrativlər, simvollar və digər vernakulyar yaradıcılıq nümunələri fərd və sosial qrupların "folklorik izləri" kimi nəzərdən keçirilə bilər. Düşünürük ki, həmin folklorik izlər fərdin və yaxud sosial qrupun folklorik kimliyini – "folklor profilini" təcəssüm etdirir. Yəni folklorik izlər fərdin kimliyini onun aid olduğu sosial-mədəni qrup kimliyi kontekstində identifikasiya imkanı yaradır.

Fərdin və ya kibersosial qrupun folklor profili, hesab edirik ki, aşağıdakı komponentlər əsasında rekonstruksiya oluna bilər:

*A. Dialektoloji və linqvistik izlər*

İnternet istifadəçisinin istifadə etdiyi regional sözlər, atalar sözlərinin spesifik variantları və ya qrammatik konstruksiyalar onun coğrafi və sosial mənşəyini göstərir. Bu izlər, xüsusilə də, müəyyən bir coğrafi bölgəyə və ya sosial təbəqəyə xas olan lüğət ehtiyatı, frazeoloji birləşmələr və ya şivə xüsusiyyətləri vasitəsilə özünü büruzə verir. Rəqəmsal mühitdə bu cür linqvistik markerlər, fərdin real dünyadakı kimliyinə dair mühüm ipucları təqdim edə bilər. Məsələn, "çaşır turşusu", "çaşır qovurması", "çaşırın pörtlədilməsi" kimi mətbəx elementlərini Naxçıvan, Dərələyəz, Qarabağ-Zəngəzur bölgələri üçün folklorik marker hesab etmək olar. Yaxud "imamzada haqqı", "ağəli", "lələ" kimi ifadələr Gəncəbasar bölgəsi üçün regional identiklik markeridir.

*B. Stereotiplər və davranış modelləri*

Fərdin hadisələrə verdiyi reaksiyalar, istifadə etdiyi ironiya və yumor tərzi onun hansı mədəni mühitdə yetişdiyini və hansı kollektiv yaddaşa sahib olduğunu üzə çıxarır. Bu həm də fərdin sosial qruplara aidiyyətini, onların dəyər sistemini və dünyagörüşünü əks etdirir. Müəyyən bir hadisəyə qarşı kollektiv şəkildə formalaşan reaksiyalar, memlər və ya şərhlər qrupun ideoloji yaxınlığını və sosial psixologiyasını göstərir. Məsələn, pandemiya dövründə xəstəliyə qarşı münasibətdə sərgilənən davranış və münasibət bir neçə aspektdən özünü göstərirdi. Bəziləri bunun insanların günahlarının cavabı, bəziləri böyük güclərin maliyyə oyunları, bəziləri isə, insanları idarə etmək üçün vasitə (çiplər) və s. kimi interpretasiya edirdilər.

*C. Mədəni kodlar və metaforalar*

Xüsusilə kritik məqamlarda və ya kəskin ictimai müzakirələrdə fərdlərin müraciət etdiyi folklorik qəliblər (məsələn, "qəhrəman", "satqın", "xain", "qurban" modelləri) onların ideoloji yaxınlığını müəyyən etməyə imkan verir. Bu kodlar, həmçinin, qrupun daxili kommunikasiya sisteminin əsasını təşkil edir və kənar şəxslər üçün çətin anlaşılan bir dil yaradır. Bu, kibercinayətkar qrupların öz aralarında gizli ünsiyyət qurmaq üçün istifadə etdiyi əsas mexanizmlərdən biridir.

Fərdin və ya sosial qrupun folklor profilinin identifikasiyası fərqli rakurlardan da dəyərləndirilə bilər. Məsələn, eyni memlərdən istifadə, eyni metaforaların təkrarlanması, oxşar emosional reaksiyalar, eyni narrativ sxemlər müxtəlif hesabların arxasında duran ortaq sosial mühiti və ya sosial qrupu müəyyənləşdirməyə kömək edə bilər.

Hesab edirik ki, folklorik profil fərdin rəqəmsal izlərini mədəni-psixoloji kontekstdə şərh etməyə imkan verən unikal bir alətdir.

## V. Folklor Əsaslı Rəqəmsal İdentifikasiya Modeli

Qeyd etdiyimiz kimi, kibercinayətkar sosial qrupun aşkarlanmasında bizim təqdim etdiyimiz model texnoloji əlamətlərə deyil, humanitar analitik modelə söykənir. Düşünürük ki, bu istiqamətdə iş, şərti olaraq, bir neçə mərhələdə həyata keçirilə bilər:

*A. Folklorik izlərin aşkarlanması*

Burada ilk növbədə fərdin və yaxud kibersosial qrupun rəqəmsal mühitdə kommunikativ prosesdə "buraxdığı izlər" – folklorik faktlar (memlər, stereotiplər, dil xüsusiyyətləri, narrativlər, simvollar) müəyyənləşdirilir. Folklorşünaslıq baxımından bu mərhələ yalnız ayrı-ayrı folklor faktlarının toplanması ilə məhdudlaşmır. Burada əsas məqsəd həmin folklorik vahidlərin hansı kommunikativ situasiyada meydana çıxdığını, hansı sosial qrup tərəfindən mənimsənildiyini, hansı emosional və ideoloji yük daşıdığını müəyyənləşdirməkdir. Çünki folklor faktı özlüyündə deyil, onu yaradan və istifadə edən sosial mühit daxilində məna qazanır. Bu səbəbdən folklorik izlərin aşkarlanması prosesi folklorun sosial kontekstinin rekonstruksiyası kimi başa düşülməlidir.

*B. Folklor profilinin qurulması*

Fərdin və yaxud kibersosial qrupun kommunikativ prosesdəki rəqəmsal folklorik izlərinin nəzərə alınması onun folklor profilinin qurulmasına şərait yaradır. Bu isə, qrupun dəyərlərinin, kollektiv emosiyasının, ideoloji mövqeyinin, düşmən və yaxud qəhrəman obrazlarının müəyyənləşdirilməsinə imkan verir. Nəticə etibarilə folklor profili ayrı-ayrı folklor elementlərinin mexaniki cəmi deyil, kibersosial qrupun kollektiv identikliyini əks etdirən strukturlaşdırılmış mədəni modeldir. Bu model vasitəsilə qrupun hansı dəyərlər sistemi ətrafında təşkil olunduğu, hansı kollektiv yaddaş elementlərinə istinad etdiyi, hansı sosial sərhədlər qurduğu və özünü digər qruplardan necə fərqləndirdiyi müəyyənləşdirilə bilər. Başqa sözlə, folklor profili kibersosial qrupun rəqəmsal mühitdə formalaşan kollektiv özünüifadəsinin analitik rekonstruksiyasıdır.

*C. Sosial-mədəni mənsubiyyətin müəyyənləşdirilməsi*

Düşünürük ki, kibersosial qrupun rəqəmsal folklorik izlərini aşkarlamaq onun folklor profilini qurmağa, folklor profilinin qurulması isə qrupun aşağıdakı əlamətlər üzrə identifikasiyasına imkan verir:

*a)* hansı kibersosial mühitə aid olması;

*b)* hansı maraq ətrafında birləşməsi;

*c)* hansı davranış modelinə malik olması;və s.

*D. Risk indikatorlarının müəyyənləşdirilməsi*

Hesab edirik ki, folklor profili müəyyən kibersosial qrupun davranış trayektoriyasının, ünsiyyət və davranışlarındakı aqressiv elementlərin, radikal-emosional meyillərin və potensial risk indikatorlarının müəyyənləşdirilməsi üçün əlavə analitik resurs rolunu oynaya bilər. Folklorşünaslıq baxımından risk indikatorları dedikdə yalnız neqativ məzmunun mövcudluğu nəzərdə tutulmur. Burada diqqətimizi müəyyən folklorik motivlərin, metaforaların, stereotiplərin və kollektiv emosional reaksiyaların davamlı şəkildə təkrarlanmasına yönəldirik. Məsələn, düşmən obrazının demonizasiyası, zorakılığın mədh olunması (qəhrəmanlaşdırılması), kollektiv qorxu və ya nifrətin folklorik formalar vasitəsilə ifadəsi qrupun gələcək davranış trayektoriyasına dair əlavə məlumat verə bilər. Bu baxımdan folklor profili yalnız mövcud vəziyyətin təsviri deyil, eyni zamanda sosial dinamikanın və potensial davranış istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edən analitik resurs kimi çıxış edir.

Düşünürük ki, internet mühitində folklor resursları əsasında fərdlərin və yaxud kibersosial qrupların identifikasiyası üçün

təqdim etdiyimiz model, ümumilikdə, kibercinayətkar qrupun identifikasiyasında müəyyən şərtlənmələr əsasında kiberkriminalistik ssenarinin proqnozlaşdırılmasına şərait yarada bilər. Bu isə sosial-antropoloji folklorşünaslıq baxımından folklorun yalnız retrospektiv deyil, həm də proqnostik potensiala malik olduğunu göstərir. Alan Dundes folklorun cəmiyyət haqqında mühüm məlumat mənbəyi olduğunu vurğulayaraq qeyd edirdi ki, folklorun öyrənilməsi vasitəsilə sosial qrupların dəyərləri, qorxuları, arzuları və kollektiv münasibətləri haqqında nəticələr çıxarmaq mümkündür [10, 11]. Bu mənada folklor yalnız keçmişin izlərini deyil, həm də sosial davranışların mümkün istiqamətlərini özündə ehtiva edən mədəni göstəricilər sistemidir.

## NƏTİCƏ

Tədqiqat göstərir ki, rəqəmsal transformasiyalar şəraitində folklorun sosial funksiyaları və analitik imkanları əhəmiyyətli dərəcədə genişlənmişdir. Ənənəvi folklorşünaslıqda folklor əsasən kollektiv yaddaşın, mədəni ənənələrin və estetik yaradıcılığın ifadə forması kimi öyrənilmişdir. Rəqəmsal kommunikasiya mühitində isə folklor bu funksiyalarla yanaşı, kibersosial qrupların identiklik sistemlərini, kollektiv davranış modellərini, dəyər istiqamətlərini və sosial-mədəni mənsubiyyətini əks etdirən göstəricilər kompleksi kimi çıxış edir. Bu baxımdan folklor yalnız mədəni irsin daşıyıcısı deyil, həm də kibersosial proseslərin öyrənilməsi, sosial qrupların identifikasiyası və kollektiv davranışların interpretasiyası üçün sosial diaqnostik və analitik resurs statusu qazanır.

Araşdırma nəticəsində müəyyən etdik ki, kiberməkanda identifikasiya yalnız texnoloji göstəricilər əsasında həyata keçirilən proses kimi qiymətləndirilə bilməz. Müasir kibertəhlükəsizlik sistemləri əsasən IP ünvanlar, geolokasiya məlumatları, cihaz identifikatorları və digər texnoloji göstəricilər üzərində qurulsa da, sosial-mədəni və folklorik göstəricilər də əlavə identifikasiya resursu kimi nəzərdən keçirilə bilər. Bu baxımdan kiberməkanda texnoloji izlərlə yanaşı, dil xüsusiyyətləri, metaforalar, memlər, stereotiplər, yumor formaları, narrativlər və kollektiv emosiyalar vasitəsilə təcəssüm olunan folklorik izlər də mövcuddur və kibertəhlükəsizliyin təmin olunmasında böyük potensiala malikdir.

Tədqiqat çərçivəsində irəli sürülən "folklorik iz", "folklor profili" və "folklor əsaslı rəqəmsal identifikasiya modeli" anlayışları göstərir ki, kibersosial qrupların folklorik resurslarının sistemli təhlili əsasında onların ehtimal olunan sosial-mədəni mənsubiyyətini, kollektiv identiklik xüsusiyyətlərini, dəyər istiqamətlərini və davranış modellərini müəyyənləşdirmək mümkündür. Təklif olunan model konkret şəxsin hüquqi və ya texniki identifikasiyasına deyil, onun aid olduğu sosial-mədəni mühitin, kollektiv davranış modelinin və kibersosial əlaqələrinin müəyyənləşdirilməsinə yönəlmiş humanitar analitik yanaşma kimi nəzərdə tutulmuşdur.

Məqalədə folklorun çoxmənalı, proyektiv və inversiv təbiətinin nəzərə alınmasının vacibliyini vurğulayaraq müəyyən etdik ki, folklorik resurslar yalnız kommunikativ fəaliyyətin məhsulu deyil, həm də sosial qrupların kollektiv emosiyalarının, qorxularının, stereotiplərinin, aqressiyasının və ideoloji mövqeyinin metaforik-simvolik təzahürüdür. Bu səbəbdən folklorik materialların birbaşa və məzmunyönlü interpretasiyası yanlış nəticələrə gətirib çıxara bilər. Odur ki, onların təhlili semiotik, hermenevtik və sosial-antropoloji interpretasiya mexanizmlərinin tətbiqini tələb edir.

Araşdırmanın mühüm nəticələrindən biri də folklorun retrospektiv funksiyası ilə yanaşı, onun proqnostik potensialının ön plana çıxarılmasıdır. Tədqiqat göstərir ki, folklor yalnız baş vermiş hadisələrin kollektiv yaddaşda qorunub saxlanılan izi deyil, eyni zamanda sosial qrupların emosional vəziyyətinin, kollektiv qorxularının, aqressiv meyillərinin və davranış istiqamətlərinin simvolik göstəricisi kimi çıxış edə bilər. Bu baxımdan folklorik resursların sistemli təhlili kibersosial qrupların potensial davranış trayektoriyalarının və risk indikatorlarının müəyyənləşdirilməsində əlavə analitik imkanlar yaradır.

Tədqiqatın perspektiv istiqamətlərindən biri folklorik izlərin böyük verilənlər üzərində avtomatik aşkarlanması, təsnifləşdirilməsi və modelləşdirilməsi ilə bağlıdır. Hesab edirik ki, təbii dilin emalı, sentiment analizi, diskurs analizi, narrativ analizi, sosial şəbəkə analitikası, maşın təlimi və böyük verilənlərin emalı texnologiyalarının sosial-antropoloji folklorşünaslıq yanaşmaları ilə inteqrasiyası gələcəkdə "süni intellekt əsaslı folklorik kiber profil analizi" sistemlərinin formalaşdırılmasına imkan verə bilər. Belə sistemlər kibersosial qrupların monitorinqi, potensial risklərin qiymətləndirilməsi, radikallaşma və kiberzorakılıq meyillərinin erkən aşkarlanması üçün əlavə analitik resurs rolunu oynaya bilər.

Beləliklə, tədqiqat göstərir ki, rəqəmsal mühitdə formalaşan folklorik resurslar yalnız kollektiv yaradıcılığın və mədəni özünüifadənin məhsulu deyil, həm də kibersosial qrupların identikliyi, dəyər istiqamətləri, davranış trayektoriyaları və sosial-mədəni mənsubiyyəti haqqında məlumat daşıyan çoxqatlı analitik göstəricilər sistemidir. Bu baxımdan folklor ənənəvi folklorşünaslığın öyrəndiyi estetik-mədəni fenomen statusunu qorumaqla yanaşı, kibersosial gerçəkliyin öyrənilməsi üçün sosial diaqnostik və analitik resurs kimi yeni funksional məzmun qazanır.

## ƏDƏBİYYAT


[1] H. Quliyev, "İnformasiya Təhlükəsizliyi və Folklor: Rəqəmsal Mərhələdə Gizli Sosial Qrupların Müəyyənləşdirilməsində Folklorun Rolu," Dədə Qorqud, no. 4(71), pp. 47–59, 2020.

[2] H. Z. Eryılmaz, "Dijital Folklor Bağlamında İnancın Değişim ve Dönüşümleri: Siber Cemaat Örnekleri," Milli Folklor, vol. 16, no. 126, pp. 110–117, 2020.

[3] R. M. Aliguliyev and H. V. Kuliyev, "Vozmozhnosti ispolzovaniya fol'klora v informatsionnoy bezopasnosti," Informatsionnoe obshchestvo, no. 5, pp. 70–79, 2020.

[4] A. Dundes, "Folklore as a Mirror of Culture," The Meaning of Folklore: Analytical Essays of Alan Dundes, S. J. Bronner, Ed. Logan, UT, USA: Utah State University Press, 2007, pp. 53–66.

[5] A. Dundes, "What Is Folklore?," The Study of Folklore. Englewood Cliffs, NJ, USA: Prentice Hall, 1965, pp. 1–3.

[6] K. Varnalı, Dijital Kabilelerin İzinde: Sosyal Medyada Netnografik Araştırmalar. İstanbul, Türkiye: Kültür Sanat Basımevi, 2019.

[7] R. G. Howard, "The Vernacular Web of Participatory Media," Critical Studies in Media Communication, vol. 25, no. 5, pp. 490–513, 2008.

[8] S. Qarayev, "Folklor vasitəsi ilə qrup və yaxud milli psixologiyanın öyrənilməsi," Dədə Qorqud, no. 2, pp. 72–78, 2018.

[9] A. Dundes, "Who Are the Folk?," Interpreting Folklore. Bloomington, IN, USA: Indiana University Press, 1980, pp. 1–19.

[10] G. A. Fine, “Small Groups and Culture Creation: The Idioculture of Little League Baseball Teams,” American Sociological Review, vol. 44, pp. 733–745, 1979.

[11] H. Quliyev, “Folklor İnformasiya Təhlükəsizliyində və İnformasiya Təhlükəsizliyi Folklorda,” İnformasiya Təhlükəsizliyinin Aktual Multidissiplinar Elmi-Praktiki Problemləri: IV Respublika Konfransının Əsərləri, Bakı, Azərbaycan, 2018, pp. 95–101.

## Investigating the Possibilities of Identifying Individuals through Folklore Resources in Internet Environments for Cybersecurity Purposes

**Hikmat Guliyev**
ANAS Institute of Folklore, Baku, Azerbaijan
*hikmet.guliyev85@gmail.com*

**Abstract–** The scope of ensuring cybersecurity, this research paper conceptualizes folklore resources in the digital environment not merely as textual data, but as a metaphorical manifestation of social dynamics and collective psychology. The concept of 'polysemous folklore' underscores the projective, inversive, and symbolic nature of folk knowledge, thereby demonstrating the inherent risks associated with its literal, aesthetic, or content-based interpretation. Furthermore, the proposed 'multidimensional analytical model' evaluates folklore resources across semiotic, ideological, emotional, and communicative parameters, enabling the identification of the structural composition, behavioral trajectories, and steering mechanisms of cybersocial groups.

**Keywords -** cybersocial group; cybercrime; digital folklore; artificial intelligence.